**Anar Fazil oğlu Abbasov**

**UOT: 330.34: 330.35; JEL: O00, O41, F43.**

# Qloballaşma şəraitində davamlı inkişaf modelinə keçid:zəruriliyi və spesifik xüsusiyyətləri

***Xülasə***

*Tədqiqatın məqsədi - qloballaşma proseslərinin dərinləşdiyi müasir şəraitdə davamlı inkişaf modelinə keçidin mövcud problemlərini araşdırmaqdan, davamlı inkişaf modelinə keçidin zəruriliyi və xarakterik xüsusiyyətləri tədqiq etməkdən ibarətdir. Tədqiqatın metodologiyası - tədqiq olunan problemlər üzrə müasir dövrdə yaranmış real vəziyyətdən çıxış etməklə təhlil və sintez, ümumiləşdirmə vasitəsilə postpandemiya və postmüharibə dövründə davamlı inkişaf modelinə keçidlə bağlı nəzəri-metodiki yanaşmaların formalaşdırılması ilə əlaqəli üslublardan, metodlardan, eyni zamanda bu problemlərə bağlı bir sıra alim və tədqiqatçıların yanaşmalarından ibarətdir. Tədqiqatın tətbiqi əhəmiyyəti-iqtisadiyyatın sahə və ərazi kəsimlərində mövcud disproporsiyaların aradan qaldırılmasına, iqtisadi qeyri-bərabsərlik səviyyəsinin aşağı salınmasına, iqtisadiyyatda "davamsızlıq" sindromunun neytrallaşdırılması istiqamətində zəruri tədbirlərin reallaşdırılmasını özündə əks etdirir. Tədqiqatın nəticələri – davamlı inkişaf modelinə keçidin özünəməxsus problemlərinin tədqiqindən və onun həlli yollarının müəyyənləşdirilməsindən ibarətdir. Tədqiqatın örijinallığı və elmi yeniliyi – davamlı inkişafın təmin edilməsində iqtisadiyyatın şaxələndirilməsinin rolunu, gəlirlər arasındakı bərabərsizliyin səviyyəsinin aşağı salınmasının prosesə təsirini, kapital aclığının qarşısının alınmasının rolunu müəyyənləşdirməkdən ibarətdir.*

***Açar sözlər:*** *davamlı inkişaf, milli iqtisadiyyat, sosial-iqtisadi və ekoloji aspektlər, resurs potensialı, iqtisadiyyatın şaxələndirilməsi, gəlirlər arasındakı qeyri-bərabərliyin aradan qaldırılması.*



## Giriş

Qloballaşma proseslərinin dərinləşməsi xüsusilə milli iqtisadiyyatın davamlı inkişaf modelinə keçidini obyektiv zərurətə çevirməkdədir. Məlum olduğu kimi, davamlı inkişafın təmin edilməsinin fundamental əsaslarını – iqtisadi, sosial və ekoloji prinsiplər təşkil edir. Davamlı inkişaf keçidin iqtisadi prinsipləri ilk növbədə öz xərcini ödəmə, özünü maliyyələşdirmə proseslərinin iqtisadiyyatda reallaşdırılmasını özündə əks etdirməklə yanaşı iqtisadiyyatın sahə və ərazi kəsimlərində iqtisadi artımın və tarazlı inkişafın təmin edilməsini özündə əks etdirir. Davamlı inkişafın sosial prinsipləri cəmiyyətdə gəlirlərin qeyri-bərabsərliyinin qarşısının alınmasına, sosial ədalətin və cəmiyyətdə aztəminatlı təbəqələrin sosial müdafiəsini etibarlı şəkildə təmin edilməsini nəzərdə tutur. Davamlı inkişafın ekoloji prinsipləri - ətraf mühitə dəyən zərərlərin səviyyəsini minimuma endirilməsi, ekoloji təhlükəsizliyin qorunub saxlanılmasını, eləcə də məhdud resursların gələcək nəsillərə qorunub saxlanılmasını özündə əks etdirir. Davamlı inkişaf modelinə keçid kifayət qədər mürəkkəb bir prosesdir. Davamlı inkişaf modelinə keçidin təmin edilməsi məqsədilə ilk növbədə dövlət və özəl tərəfdaşlıq sisteminin təmin edilməsi, sahibkarlığın inkişafına əlverişli şərait yaradılması vacib şərtlərdən biri hesab edilir.

*©Anar Fazil oğlu Abbasov i.e.d., Azərbaycan Kooperasiya Universiteti, "Biznesin təşkili, dövlət və bələdiyyə idarəetməsi" kafedrasının professoru, E-mail: anar1973@mail.ru.*
*©AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

**Davamlı inkişaf modelinə keçidin əlamətləri və xüsusiyyətləri**

Dayanıqlı iqtisadi inkişaf modelinə keçirilməsinin mühim əlamətlərindən biri iqtisadiyyatın özünü maliyyələşdirmə imkanlarının yetərincə yüksək olmasıdır. Bu zaman ilk növbədə səmərəli büdcə və səmərəli maliyyə kredit siyasətinin vergi və qiymət və gəlirlərin ədalətli şəkildə bölüşdürülməsinə xidmət etməsi vacib şərtlərdən biri hesab olunur. Gəlirlərin yüksək səviyyəli bərabəriszliyi iqtisadi və sosial mobilliyi məhdudlaşdırır və nəticədə iqtisadi artıma mane olur [1]. Bərabərsizlik sosial ədalətin pozulmasına gətirib çıxarır. Bərabərsizlik sosial ədalətin əsas prinsiplərinə ziddir. Bərabərsizliyin artması siyasi və sosial gərginliyin artmasına, bəzi hallarda münaqişə və qeyri-sabitliyə səbəb olur. Nəticədə yaranan yüksək risklər və sistemin davamsızlığı iqtisadi artıma, yoxsulluğun azaldılmasına mane olur və yüksək səviyyəli idarəetmə və demokratik institutlara mənfi təsir göstərir [2]. Əslində sosial ədalət ümumbəşəri xoşbəxtliklə də əlaqələndirilir. Lakin, nəzərə almaq lazımdır ki, bütün hallarda "ümumbəşəri xoşbəxtliyin" nə olduğu müəyyənləşdirilməyib və görünür bu prinsipcə mümkündə deyil. Çox vaxt "ümumbəşəri xoşbəxtlik" əvəzinə və ya onunla birlikdə ədalət anlayışından istifadə edilir [3]. Xoşbəxtlik nisbi xarakter daşıyır və hətta heç bir fərd həyatının bütün zamanında xoşbəxt olmamışdır. İqtisadiyyatın özünümaliyyələşdirmə rejimində davamlı fəaliyyətinin təmin edilməsi ilk növbədə mülkiyyət mənsubiyyətindən asılı olmayaraq təsərrüfat subyektlərinin öz fəaliyyətini gəlirlə başa çatdırılması və rentabelliyində öz fəaliyyət göstərməsi mühim əhəmiyyət kəsb edir. Bundan əlavə, iqtisadiyyatda xüsusilə makroiqtisadi baxımdan kapital resurslarına olan tələbatın ödənilməsində yerli vəsaitlərdən istifadə imkanlarının həcminin və miqyasının artırılması vacib şərtlərdən biridir. Məlum olduğu kimi, iqtisadiyyatda daxili investisiya mənbələrinin rolunun artırılması xarici investisiya resurslarına olan ehtiyacların aradan qaldırılmasını təmin etməklə yanaşı, eyni zamanda investisiya təhlükəsizliyin təmin edilməsində də mühüm əhəmiyyət kəsb edir. İqtisadiyyatın özünümaliyyələşmə rejimində fəaliyyət göstərməsinin mühüm strateji əhəmiyyətini şərtləndirən ən mühüm məqamlardan biri də ondan ibarətdir ki, xüsusilə böhranlı stuasiyalar zamanı xarici investisiyaların ölkənin milli iqtisadiyyatdan çəkilməsi prosesi son nəticədə kapital resurslarına olan ehtiyacları artırır və bu da milli iqtisadiyyatda kapital acılığı problemi yaşayır. Bu problem daha çox makro-iqtisadi təhdid vasitəsinə çevrilməsi şübhəsiz ki, bütövlükdə iqtisadi gərginliyin artmasına gətirib çıxarır. Belə ki, kapital resurslarına olan ehtiyacların ödənilməsində daxili resurslarının rolunun aşağı səviyyədə olması ona gətirib çıxarır ki, böhranlı situasiyalar zamanı xarici investisiyaların çəkilməsi iqtisadi fəallığı əhəmiyyətli dərəcədə məhdudlaşdırır və bu da müəssisələrin fəaliyyətini dayandırılmasına, işsizliyin səviyyəsinin artmasına və eləcə də əhalinin gəlirlərinin səviyyəsinin aşağı düşməsinə səbəb olur.

Dayanıqlı iqtisadi inkişaf modellərində ən mühüm əlamətlərdən biri də öz xərcini ödəmə prinsipinin reallaşdırılmasıdır. Öz xərcini ödəməyə prinsipi ilk növbədə geniş təkrar istehsal prosesinin uğurla başa çatdırılmasını və eləcə də təsərrüfat subyektərinin bu prosesdən maksimum mənfəət əldə etmələrinin təmin edilməsi ilə bağlıdır. Davamlı iqtisadi inkişaf modelinə keçidin ən mühüm strateji reallıqları ondan ibarətdir ki, bu zaman inkişafı formalaşdıran ölkələrdə iqtisadi müstəqilliyin qorunub saxlanması, ölkənin iqtisadi təhlükəsizliyinin təmin edilməsi, ekoloji təhlükəsizliyin qorunub saxlanılması ön plana çəkilməlidir. Davamlı inkişafa nail olunması həm makro sferada ölkənin, həm də mikro sferada müəssisənin iqtisadi təhlükəsizliyinin təmin edilməsinə əhəmiyyətli dərəcədə təsir göstərir. Müəssisənin iqtisadi təhlükəsizliyi - onun fəaldiyyətinin xarici mühitin mənfi təsirlərindən, habelə müxtəlif təhlükələri sürətlə aradan qaldırmaq və mövcud şəraitə uyğunlaşdırmaq qabiliyyətidir [4]. Firma və şirkətlərin iqtisadi təhlükəsizliyni müəssisənin iqtisadi artım imkanları, onun müstəqilliyi və sabitliyinin müəyyən edən amillərin məcmusu



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

müəyyən edir [5]. Adı çəkilən stateji səbəblər gerçəkliyində iqtisadi müstəqilliyin qorunub-saxlanılması ilk növbədə müstəqil şəkildə reallaşdırılan iqtisadi siyasət vasitəsilə həyata keçirilir ki, bu da nəticə etibarilə hər bir ölkənin sosial-iqtisadi davamlığının qorunub saxlanılmasına xidmət edir. Məsələni mürəkkəbləşdirən cəhətlərdən biri də ondan ibarətdir ki, əslində davamlı iqtisadi inkişafın təmin edilməsi azad bazar iqtisadiyyatı şəraitində reallaşdırıldığından və eləcə də prosesə əhəmiyyətli dərəcədə qloballaşma meylləri təsir göstərdiyindən ilk növbədə iqtisadi şəffaflıq və iqtisadi sərhədlərin şəffaflığı zəminində daxili və xarici amillərin təsir müsbətləri kifayət qədər böyüyür. Bütün bunları ümumiləşdirsək belə nəticəyə gəlmək olar ki, əslində azad iqtisadi məkan şəraitində qloballaşma prosesinin dayanıqlı iqtisadi inkişaf modelinə keçid prosesinə təsiri kifayət qədər sürətli və sosial-iqtisadi və hətta siyasi və hətta konyuktur dalğalanmaları fonunda baş verir.

Davamlı iqtisadi inkişafa nail olunması ilk növbədə ölkə iqtisadiyyatının sturukturunda zəruri dəyişikliklərin həyata keçirilməsi ilə sıx bağlıdır. Bundan əlavə, iqtisadiyyatın sahə və ərazi strukturlarının uğurlu kooperasiyasının təmin edilməsi və inteqrasiya münasibətlərinin effektiv şəkildə qurulması da vacib şərtlərdən biridir. Əslində dayanıqlı iqtisadi inkişaf modelinin seçilməsi mahiyyət etibarilə rəqabətə davamlı iqtisadiyyatın formalaşdırılmasına istiqamətləri tədbirlərin gerçəkləşdirilməsinə istiqamətlənir. Odur ki, rəqabətədavamlılıq istehsal proseslərinin həyata keçirilməsi məhz mahiyyət etibarı ilə ixracın strukturunda rəqabətədavamlı əmtəələrin xüsusi çəkisinin yüksəldilməsinə istiqamətlənir ki, bu da son nəticədə hər bir ölkənin iqtisadi reytinqini, eləcə də təsərrüfat subyektlərinin uğurlu reytinqini formalaşdırır. Dayanıqlı iqtisadi inkişaf modelinə əslində iqtisadiyyatda əmək məhsuldarlığının yüksəldilməsi və kapital tutumlu məhsulların istehsalı fonunda yanaşılması daha vacib olardı. Belə ki, problemin stratej cəhəti ondan ibarətdir ki, əslində kapitaltutumlu məhsullar ölkənin iqtisadiyyatının sənayeləşdirilməsinin mühüm şərtlərindən biri hesab edilir. Bu isə prinsipcə sənaye müəssisələrində daha çox əmək qabiliyyətli işçilərin işləmə imkanlarının formalaşdırır. Belə şəraitdə isə işsizliyin səviyyəsinin aşağı salınmasına nail olmaq, effektiv məşğulluğu təmin etmək və eləcə də əhalinin gəlirlərinin artırılmasına nail olmaq mümkündür. Nəzərə almaqla vacibdir ki, əvvəlki iqtisadi model çərçivəsində iqtisadi proseslərin və iqtisadi inkişafın dayanıqlığı ilk növbədə makrosistemlərin qlobal dayanıqlılığına nail olunması ilə şərtlənirdi. İqtisadiyyatın sahə və ərazi kəsimlərində dayanıqlı inkişaf modelinin səciyyəvi cəhətləri baxımından, dayanıqlı iqtisadi inkişaf modelinin seçilməsi zamanı isə əslində bütün səviyyələrdə dayanıqlılıq müəssisələr və regionlar səviyyəsində formalaşdırılır. Daha doğrusu uğurlu müəssisə və uğurlu region prosesinin seçilməsi və onun digər regionlara sirayət etməsi əslində bütövlükdə iqtisadi sistemin dayanıqlığının şərtləndirir. Dayanıqlı iqtisadi sistemi səciyyələndirən cəhətlərdən ən mühim cəhətlərdən biri də ondan ibarətdir ki, dayanıqlı iqtisadi sistem çərçivəsində fəaliyyət göstərən müəssisələrin müflisləşməsi prosesi demək olar ki, praktik olaraq nəzərdə tutulmur. Odur ki, istər dövlət tərəfindən və istərsə də sahibkarlıq qurumları tərəfindən makro ve mikro iqtisadi problemlərin effektiv şəkildə həll edilməsi nəticə etibari ilə müflisləşməsiz müəssisə, müflisləşməsiz iqtisadiyyatın formalaşdırılmasına xidmət edir və belə bir şəraitdə isə regionda müflisləşməyən və yəni iqtisadi cəhətdən geniş təkrar istehsal prosesini uğurlu şəkildə başa vuran müəssisələrin sayı artır ki, bu da bütövlükdə daha çox iqtisadi gəlir əldə edilməsinə xidmət edir. Proseslərin uğurlu xarakterini səciyyələndirən ən mühüm məqamlarından biri də ondan ibarətdir ki, yatırılan investisiyaların qısa zaman kəsiyində öz nəticələrini verməsidir. Bu isə müəssisələrin beynəlxalq iqtisadi münasibətlər sisteminə uğurlu inteqrasiyasının həyata keçirilməsini, eləcə də rəqabətədavamlı məhsul istehsalı fonunda ixracın strukturunda rəqabətədavamlı məhsulların xüsusi çəkisinin yüksəldilməsinə xidmət edir. Məhz belə bir şəraitdə əslində regionlarda tam mənası ilə təsərrüfat hesablı və və özünümaliyyələşdirmə



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

rejimində fəaliyyət göstərən müəssisələrin sayının əhəmiyyətli şəkildə artımı təmin edilir ki, bu da iqtisadi təhlükəsizliyin fundamental prinsiplərindən biri sayılır. Dayanıqlı iqtisadi inkişaf modelinin seçilməsi ilk növbədə dövlətin uğurlu regional siyasətinin həyata keçirilməsində bilavasitə aslıdır. Məlum olduğu kimi, hər bir regionun iqtisadiyyatının özünəməxsus spesifik xüsusiyyətləri mövcuddur və həmin spesfik xüsusiyyətlər çərçivəsində ixtisaslaşma prosesinin reallaşdırılmasına xüsusi önəm verilməlidir ki, bu da mahiyyət etibarilə beynəlxalq bazar konyukturunda baş verən tərəddüdlərdən aslı olmayaraq davamlı olaraq ölkəyə gəlirlərin təmin edilməsini nəzərdə tutur.

**Müasir dövrdə dayanıqlı iqtisadi inkişaf modelinin əsas prinsipləri və tendensiyaları**

Dayanıqlı iqtisadi inkişaf modelinin mühüm prinsiplərindən biri ölkədə və regionlarda iqtisadi şaxələndirmə prosesinin effektiv şəkildə həyata keçirilməsi ilə bağlıdır. İqtisadi şaxələndirmə mahiyyət etibarilə beynəlxalq bazar konyukturunda baş verən tərəddüdlərdən iqtisadiyyatın kənarlaşdırılmasını nəzərdə tutur və bu prosesin gerçəkləşdirilməsi son nəticədə beynəlxalq bazarda baş verən arzuolunmaz dəyişikliklərin yalnız bir və ya bir neçə məhsul növünün ixracına şamil edildiyi halda, digər növ məhsul və xidmətlərinin göstərilməsi zamanı əldə edilən gəlirlərin artırılması fonunda zərərlərin effektiv şəkildə kompensasiya edilməsi baş verir. Belə bir şərait əslində iqtisadiyyatın dayanıqlığını formalaşdıran və eləcə də mikro səviyyədə müəssisələrin fəaliyyətinin dayanıqlığının şərtləndirən ən mühüm amilə çevrilir. Beləliklə, dayanıqlı iqtisadi model ilk növbədə regional təsərrüfat subyektlərinin ixtisaslaşma prosesinin dərinləşdirilməsinə xidmət etməklə yanaşı, iqtisadiyyatın çoxşaxəliliyinin təmin edilməsinə və ixracın çoxşaxəliyin təmin edilməsinə istiqamətlənir. Şaxələndirmə bir müəssisədə olan resursların əvvəlkindən əhəmiyyətli dərəcədə fərqlənən digər fəaliyyət sahələrinə yenidən bölüşdürmə məqsədi ilə istifadə olunma prosesidir [6]. Xüsusilə inkişaf etməkdə olan ölkələrin iqtisadi təcrübəsi göstərir ki, əslində daxili maliyyə resurslarının çatışmazlığı, eləcə də xaricdən investisiya axınının cəlb edilməsi imkanlarının təmin edilmədiyi şəraitdə bütövlükdə regionda iqtisadiyyatın inkişafının davamlılığının təmin edilməsində məhdudlaşdırılmalar baş verir. Bu məhdudlaşmalar isə əslində isə maliyyə resurslarının dövriyyə imkanlarının zəifləməsinə gətirib çıxarmaqla iqtisadiyyatda destruktiv tendensiyaların səviyyəsinin yüksəlməsinə səbəb olur. Dayanıqlı iqtisadi inkişaf modeli çərçivəsində gəlirlərin yenidən bölüşdürülməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi də vacib şərtlərdən biri hesab olunur. Nəzərə almaq lazımdır ki, gəlirlərin yenidən bölüşdürülməsi prosesi cəmiyyətdə sosial dayanıqlığın təmin edilməsinin vacib şərtlərindən biri hesab edilir. Əslində yuxarıda qeyd etdiyimiz kimi ilkin bölüşdürmə zəminində kapital resursları daha çox resurs sahiblərinin, kapital sahiblərinin və məhsul istehsalçılarının xeyrinə bölüşdürülür və bu bölüşdürülmədən əslində cəmiyyətin digər sosial təbəqələri öz paylarını ala bilmirlər. Nəzərə almaq lazımdır ki, iqtisadiyyatda gəlirlərin ədalətli bölüşdürülməsinə istiqamətlənmiş tədbirlərin gerçəkləşdirilməsi məhz gəlirlərin yenidən bölüşdürülməsinə istiqamətlənmiş dövlətin sosial siyasəti və gəlir siyasəti zəminində baş verir.

Cəmiyyətdə sosial sabitliyə təhdid doğuran faktorlardan biri işsizliyin səviyyəsinin artması, əhalinin gəlirləri baxımından təbəqələşmə səviyyəsinin dərinləşməsi hesab olunur. Odur ki, dövlətin sosial siyasəti məhz gəlirlərin yenidən bölüşdürülməsi yolu ilə cəmiyyətdə sosial sabitliyin təmin edilməsinə yönəldilməlidir. Xüsusilə inkişaf etməkdə olan ölkələrin təcrübəsi göstərir ki, dayanıqlı iqtisadi inkişaf modelinin formalaşdırılması ilə bağlı hər bir ölkədə bu və ya digər şəkildə kifayət qədər bir-birindən fərqlənən, əslində bir sıra hallarda ümumiləşmə baxımından ümumiləşdirilə bilən problemlər mövcuddur ki, bu problemlərə aşağıdakıları şamil etmək olar:



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- İqtisadiyyatın sahə və ərazi kəsimlərində kifayət qədər çoxsaylı iqtisadi problemlərin mövcudluğu. Adı çəkilən problemlər əslində regionların iqtisadiyyatı baxımından kifayət qədər özünü aktual şəkildə büruzə verir. Belə ki, hər bir ölkədə çoxsaylı geri qalmış, yəni inkişafdan məhrum olmuş regionlar mövcuddur ki, bu regionlarda da əhalinin sosial vəziyyəti kifayət qədər ağırılığı ilə seçilir. Həmən ölkələrdə əmək qabiliyyətli əhalinin xeyli hissəsi daha yüksək yaşam şərtləri əldə etmək məqsədilə digər regionlara köç etmək məcburiyyətində qalır ki, bu da ölkənin xüsusilə inkişaf etmiş biznes regionlarında və sənaye mərkəzlərində, eləcə də mərkəzi regionlarında urbanizasiya probleminin daha da güclənməsinə gətirib çıxarır. İnkişafdan geri qalmış regionların əhalisi daha yüksək yaşam şərtləri əldə etmək məqsədi ilə digər regionlara köçürlər ki, bu da xüsusilə regionlarda istehsal və infrastruktur sistemi baxımından problemlərin mövcudluğu zəminində özünü daha çox biruzə verir. İnkişafdan geri qalmış regionlar üçün xarakterik cəhətlərdən biri də ondan ibarətdir ki, həmin regionlara xarici investisiyaların cəlb edilməsi ilə bağlı investisiya cəlbediciliyinin kifayət qədər aşağı səviyyədə olur.
- Dayanıqlı inkişaf modelinə keçidin ən mühüm problemlərindən biri də iqtisadiyyatın şaxələndirilməsi prosesinin uğurla reallaşdırılmamasıdır. İqtisadiyyatın şaxələndirilməsi prosesinin uğurla reallaşdırılmaması mahiyyət etibarilə ixracın strukturunda destruktiv tendensiyaların mövcudluğuna gətirib çıxarır və eyni zamanda bütövlükdə iqtisadiyyatın beynəlxalq bazar konyunkturununda baş verən tərəddüdlərdən asılılığına səbəb olur.
- İqtisadiyyatın maliyyə sektorunda disproporsiyaların mövcudluğu və bütün bunların mahiyyət etibarilə iqtisadiyyatın real sektoruna daha çox nüfuz etməsi. Qeyd etmək lazımdır ki, maliyyə sferasında baş verən disproporsiyalar ilk növbədə dövlət büdcəsinə daxilolmaların kifayət qədər fasilələrlə yerinə yetirilməsinə gətirib çıxarır və bu proses iqtisadiyyatın şaxələndirilməsi fonunda ixracın yalnız bir məhsul növündən asılılığa səbəb olur ki, bu da bütövlükdə iqtisadiyyata daxilolmaların həcminin ləngimələrə səbəb olur. Vəziyyəti mürəkkəbləşdirən cəhətlərdən biri də ondan ibarətdir ki, əslində iqtisadiyyatın maliyyə sektorundakı ən mühüm problemlərdən biri ilk növbədə gizli iqtisadiyyatın mövcudluğu korrupsiyanın miqyasının genişlənməsi ilə bağlıdır.
- Dayanıqlı iqtisadi inkişaf modelinə keçirilməsi ilə bağlı cəmiyyətdə kifayət qədər psixoloji gözləntilərin yaranması və mahiyyəti etibarilə qısa müddət zaman kəsiyində həmin psixoloji gözləntilərə nail olması baxımından iqtisadiyyatda böhran və tənəzzül meyllərinin psixoloji baxımdan meydana çıxma zəruriyyətinin yaranması.
- Xüsusilə inkişaf etməkdə olan ölkələrdə sosial gərginliyin səviyyəsinin yüksəlməsi, cəmiyyətdə issizliyin səviyyəsinin artması, cəmiyyətdə təbəqələşmənin dərinləşməsi, eləcə də yoxsulluq həddində yaşayan əhalinin sayının və xüsusi çəksinin yüksəlməsi. Cəmiyyətdə sosial gərginliyin səviyyəsinin yüksəlməsi və onun miqyasının genişlənməsi bizi etibarilə sosial sabitliyin pozulmasına gətirib çıxarır. Bütün bunlar isə davamlı hal aldığı şəraitdə isə cəmiyyətdə sosial təlatümlər qaçılmaz xarakter daşıyır.
- Qloballaşma proseslərinin reallaşdırıldığı hazırki şəraitdə iqtisadiyyatda davamsızlıq və əlaqələrin tam demək olar ki, bu və ya digər şəkildə kəsilməsi, eləcə də fasiləlilik proseslərinin mövcüdluğu xarakterik cəhətlərdəndir. Bu baxımdan istər regiondaxili və istərsə də regionlararası sosial-iqtisadi əlaqələrin kəsilməsi və eləcə də regionlararası inkişafın yetərli olmaması mahiyyət etibarilə iqtisadi inkişafda da fasiləliliyin yaranmasına səbəb olur.



© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

- Məlum həqiqətdir ki, iqtisadiyyatda struktur dəyişikliklərinin həyata keçirilməsi davamlı iqtisadi inkişaf modelinə keçidin başlıca elementlərində birini təşkil edir. Bu baxımdan iqtisadiyyatın struktur dəyişikliklərin həyata keçirilməsi üçün investisiya mənbələrinin müəyyənləşdirilməsi və eləcə də iqtisadiyyatın investisiya məhsullarına olan tələbatın ödənilməsi mühüm amillərdəndir. Lakin təəssüflə qeyd etmək lazımdır ki, inkişaf etməkdə olan ölkələrdə iqtisadiyyatda struktur dəyişikliklərinin həyata keçirilməsinin investisiya təminatı demək olar ki, məhdud xarakter daşıyır. Bu məhdudluğu səciyyələndirən ən mühüm amillərdən biri də istər dövlət büdcəsinin imkanlarının yetərsizliyi və istərsə də iqtisadiyyatda pul daxilolmalarının həcmində fasiləliliyin yaranması ilə bağlıdır.
- Dayanıqlı iqtisadi inkişaf modelinin seçilməsini şərtləndirən ən mühüm amillərdən biri ətraf mühitin mühafizəsi və eləcə də ekoloji dayanıqlığın qorunub saxlanılması təşkil edir. Bu baxımdan dayanıqlı iqtisadi inkişafa keçidə ən mühüm problemlərindən biri də ekoloji problemlərin mövcudluğudur. Ekoloji problemlər xüsusilə sənaye məsələlərində ətraf mühitə buraxılan zərərli qazların və digər zərərli tullantıların həcminin çoxalması ilə bağlı özünü təzahür etdirirsə, digər tərəfdən isə qlobal iqlim dəyişiklikləri prosesin daha da güclənməsinə gətirib çıxarır.
- Dayanıqlı iqtisadi inkişaf modelinin seçilməsi ilə bağlı iqtisadiyyatın investisiya resurslarına olan ehtiyaclarının tam şəkildə ödənilməməsi, eləcə də məqsədli maliyyə proqramlarının gerçəkləşdirməməsi səbəbindən irəli gəlir. İqtisadiyyatda məqsədli maliyyə proqramlarının gerçəkləşdirməməsi həm regionların sosial-iqtisadi inkişafının sürətləndirilməsinə mənfi təsir göstərir və həm də iqtisadiyyatın ağırlıq mərkəzinin daha çox şəhər regionlarında yaranan iqtisadi gəlirdən, daha doğrusu vergilərdən formalaşdırılmasına gətirib çıxarır.



Dayanıqlı iqtisadi inkişafa keçidin ən mühüm problemlərindən biri də sosial-iqtisadi inkişafın tənzimlənməsi ilə bağlı səmərələri tənzimləmə vasitələrinin mövcud olmaması ilə bağlıdır. Əslində bir sıra hallarda dövlət tənzimləməsinin miqyasının genişləndirilməsi mahiyyət etibarilə iqtisadiyyatda dövlətin daha çox yüklənməsinə səbəb olmaqla yanaşı, eyni zamanda məmur özbaşınalığına və inzibati burokratik amillərin rolunun da artmasına səbəb olur. Dünya təcrübəsi göstərir ki, iqtisadiyyatın dövlət tənzimlənməsi ilə bağlı tədbirlərin səviyyəsini və miqyasını kifayət qədər dövrü olaraq yanaşılmalıdır. Daha doğrusu iqtisadiyyatda konyuktur dalğalanmaların miqyasından deyil, eləcə də iqtisadi böhranların səviyyəsindən və miqyasından asılı olaraq dövlət tərəfindən həyata keçirilən təzələmə proseslərinin tədbirlərinin effektliyini də müvafiq olaraq dəyişdirilməlidir. Daha doğrusu dövlət tərəfindən iqtisadi artımı tənzimləmək və iqtisadi artımı stimullaşdırmaq məqsədilə həyata keçirilən liberal tənzimləmə vasitələrinə daha çox üstünlük verilməlidir ki, bu da iqtisadi dayanıqlılığın gücləndirilməsinə əlverişli şərait yaradır.

Davamlı inkişaf konsepsiyasının yaranmasının şərtləndirən ilkin amilləri ilk növbədə təbiətə antropogen təsirlərin daha da güclənməsi fonunda insanların iqtisadi fəaliyyətinin həyata keçirilməsində ekoloji təhlükəsizliyin qorunub saxlanılması və cəmiyyətin sosial ehtiyaclarının davamlı şəkillərdən ödənilməsi ilə sıx əlaqədardır. Xüsusilə dünya əhalisinin sayının artması fonunda insanların ərzaq məhsullarına olan tələbatının ödənilməsində kifayət qədər çoxsaylı problemlər yaranmışdır və həmin problemlərin effektiv şəkildə aradan qaldırılması əslində davamlı inkişaf konsepsiyasının tətbiqini obyektiv zərurəti çevirmişdir. Müasir şəraitdə bəşər sivilizasiyasının inkişafına nail olunması ilk növbədə iqtisadi, ekoloji və sosial inkişaf amillərinin balanslaşdırılmasını zərurətə çevirməklə yanaşı, eyni zamanda iqtisadi sərvətlərin və resursların gələcək nəsillərə daha optimal şəkildə

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

ötürülməsini tələb edir. Aparılan araşdırmalar göstərir ki, davamlı inkişaf konsepsiyasının meydana gəlməsini şərtləndirən amillər əslində ötən əsrin ortalarından etibaren cəmiyyətdə bu konsepsiyanın yaranmasına səbəb olan şərtlər zəminində meydana çıxmışdır. Belə ki, ötən əsrin ortalarından etibarən iqtisadi şaxələndirmə ideyasının meydana gəlməsi mahiyyət etibarilə əslində davamlı inkişafın formalaşdırılmasının ilkin klassik pastulatları kimi çıxış edə bilərdi. Şaxələndirmə prosesinin güclənməsi, sahələrarası holdinqlərin və maliyyə-sənaye qruplarının yaradılması, iqtisadiyyatın korporativ sektorunun inkişafı qlobal iqtisadi məkanda yeni tendensiyalar formalaşdırır [7].

Kütləvi şaxələndirmə ideyasının yaranması ilk növbədə cəmiyyətdə baş verən istehsal münasibətlərinin və məhsuldar qüvvələrin inkişaf fonunda özünü büruzə versə də, daha çox bazar konyukturunda baş verən dalğalanmalardan, iqtisadiyyatın konkret kəsimlərinin daha çox təsirlənməsi ilə meydana çıxmışdır. Bazar strukturunda alternativ məhsulların və xidmətlərin olmadığı şəraitdə bütövlükdə ixrac fəaliyyəti konyuktur dalğalanmalarından daha çox asılı olur. Xüsusilə iqtisadiyyatın sahə və ərazi kəsimlərinin davamsızlığının artmasına səbəb olur. Dünyada iqlim dəyişikliklərinin, davamlı inkişafın, su resurslarının və energetika resurslarının iqtisadiyyatı üzrə ixtisaslaşmış Şirilanka iqtisadçısı Moxan Mala Sinxenin fikirincə ötən əsrin ortalarında iqtisadi artım yalnız bir neçə inkişaf etmiş ölkədə özünü daha çox biruzə verirdi. Lakin bununla belə XX əsrin sonlarına yaxınlaşdıqca qloballaşma prosesinin təsiri altında dünya  iqtisadiyyatında demək olar ki, praktik olaraq iqtisadi baxımdan genişlənmə halları müşahidə edilməyə başladı və iqtisadi artımın digər ölkələrə yayılması prosesi baş verdi. XX əsrin ortalarından XX əsrin sonlarına qədər dünyanın iqtisadi cəhətdən inkişaf etmiş ölkələri sırasına Kanada, Yaponiya, Cənubi Koreya və digər Asiyanın bir sıra ölkələri daxil olmağa başladı ki, bu da bütövlükdə iqtisadi cəhətdən inkişaf trayektoriyasının dünya boyu səpələnməsini şərtləndirdi. Əslində bu tip səpələnmə XX əsrin ortalarından 20-ci əsrin sonlarına qədər baş versə də, səpələnmə nin mahiyyəti istər inkişaf etmiş ölkələrdə və istərsə də inkişaf etməkdə olan ölkələrdə yalnız iqtisadi səmərəliyə yönəlmiş iqtisadi inkişaf proseslərini əhatə edirdi. İqtisadi səmərəliliyin təmin edilməsi isə əslində bazar iqtisadiyyatının ən mühüm prinsiplərindən biri olmaqla yalnız və yalnız iqtisadi sərvətin artırılması nəzərdə tuturdu. Yalnız iqtisadi sərvətin artırılmasına istiqamətlənmiş tədbirlər sistemi ekoloji dayanıqlığın qorunmasını təmin etmir və cəmiyyətin sosial ehtiyaclarını tam mənası ilə ödəmək iqtidarında olmurdu. Xüsusilə digər transmilli şirkətlərin daha çox iqtisadi səmərəlik uğurunda çarpışmaları bütövlükdə milli iqtisadiyyat çərçivəsində dayanıqlı iqtisadi səmərəlik əldə edilməsinə imkan vermirdi. Dayanıqlı iqtisadi səmərəliliyin əldə edilməsi o halda cəmiyyət üçün sərfəli ola bilərdiki, bu prinsip daha çox cəmiyyətin bütün təbəqələrinin sosial ehtiyaclarının ödənməsinə və zamanda ekoloji balansın qorunub saxlanılmasına xidmət edir [8].

**Nəticə**

Davamlı inkişaf modelinin formalaşdırılması hər bir ölkənin iqtisadi inkişafından, onun etnik, milli xüsusiyyətlərindən bilavasitə asılıdır:

- Bir sıra hallarda iqtisadi sistemin tipi və xarakteri özünəməxsus səciyəvi xüsusiyyətlərə malik olur və bu da davamlı inkişaf modelinin seçilməsində xarakterik məqamları ilə səciyyələnir;
- Cəmiyyətlərin tipləri baxımından yanaşdıqda ənənəvi cəmiyyətlərdə davamlı inkişaf modelinə keçid kifayət qədər mürəkkəb xarakter daşıyır. Bu ilk növbədə onunla bağlıdır ki, ənənəvi cəmiyyətlərdə iqtisadiyyatın əsas sektorunu kənd təsərrüfatı və onunla qarşılıqlı əlaqəyə malik olan sahələr təşkil edir;



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*

- Məhz belə bir şəraitdə davamlı inkişaf modelinə keçid zamanı iqtisadi səmərəliliyin təmin edilməsi və sosial ədalətin qorunub saxlanılması kifayət qədər çoxsaylı problemlərlə üzləşir;
- Sənaye cəmiyyətlərində isə iqtisadiyyatın əsas sektorunu sənaye və infrastruktur sistemləri təşkil etdiyindən davamlı inkişaf modelinə keçid o qədər də mürəkkəb xarakter daşımır.

## Ədəbiyyat


1. ООН 75, 2020 год и далее. Общее будущее общими силами. https://www.un.org/ru/un75.
2. Международный Валютный Фонд "Причины и последствия неравенства доходов: глобальная перспектива". 2015 г. - https://www.undp.org/sites/g/files/zskgke326/files/publications/SDG10_Reducing%20inequality_RU%20-%20web.pdf.
3. Устойчивое развитие. Новые вызовы. Под общый ред И.А.Пискиловой. М. 2015.
4. Кащеев, В.И. Обеспечение информоционной безопасносьти коммерческого обекта// Системы безопасносьти 1995, №5. с.8-12.
5. Забродский, В. Теоретические основы оценки экономической безопасносьти отрасли и фирмы. Бизнес информ. 1999, №15-16, с.35-37.
6. Ансофф, И. Новая корпоративная стратегия. СП.б: 1994 – 416 с.
7. Кондратьев, В. Государства и корпорации в страгии глобальной конкурентоспособности// Стратегия и конкуренто способность. 2007, №2(14). – с. 48-54.
8. Мала, С.М. Экономическая политика и окружающий среда, опыт вывода республикация в Всемирного банка к проблемам окружающей среды, выпуск 10, Вашингтон, Колумбия. – 1995.




***Анар Фазиль оглы Аббасов***

***Переход к модели устойчивого развития в условиях глобализации: необходимость и особенности***

***Резюме***

*Цель исследования: изучить существующие проблемы перехода к модели устойчивого развития в современных условиях углубления глобализации, изучить необходимость и особенности перехода к модели устойчивого развития. Методология исследования - методы и приемы, связанные с формированием теоретико-методологических подходов к переходу к модели устойчивого развития в постпандемический и послевоенный периоды путем анализа и синтеза, обобщения на основе реальной ситуации в современном мире, а также ряд ученых и исследователей. Важность применения исследования- заключается в реализации необходимых мер по устранению существующих диспропорций в отраслевом и территориальном секторах экономики, снижению уровня экономического неравенства, нейтрализации синдрома «волатильности» в экономике. Результатом исследования - являются изучение конкретных проблем перехода к модели устойчивого развития и поиск решений. Оригинальность и научная новизна исследования- заключается в определении роли экономической диверсификации в обеспечении устойчивого развития, влияния снижения уровня неравенства доходов на процесс, роли предотвращения нехватки капитала.*

***Ключевые слова:*** *устойчивое развитие, национальная экономика, социально-экономические и экологические аспекты, ресурсный потенциал, диверсификация экономики, устранение неравенства доходов.*

© AMEA İqtisadiyyat İnstitutu
© www.economics.com.az

***Anar Fazil oglu Abbasov***

***Transition to a sustainable development model in the context of globalization: necessity and features***

***Summary***

*Purpose of the study: - to study the existing problems of transition to a model of sustainable development in modern conditions of deepening globalization, to study the need and features of the transition to a model of sustainable development. Research methodology - methods and techniques associated with the formation of theoretical and methodological approaches to the transition to a model of sustainable development in the post-pandemic and post-war periods through analysis and synthesis, generalization based on the real situation in the modern world, as well as a number of scientists and researchers. The importance of applying - the research lies in the implementation of the necessary measures to eliminate the existing imbalances in the sectoral and territorial sectors of the economy, to reduce the level of economic inequality, to neutralize the "volatility" syndrome in the economy. The result of the research- is the study of specific problems of the transition to a sustainable development model and the search for solutions. The originality and scientific novelty- of the research lies in determining the role of economic diversification in ensuring sustainable development, the impact of reducing the level of income inequality on the process, the role of preventing a lack of capital.*

***Key words:*** *sustainable development, national economy, socio-economic and environmental aspects, resource potential, economic diversification, elimination of income inequality.*

***Elmi redaktor: i.f.d., dos.Y.Məmmədov.***
***Daxil olub: 29.10.2021.***
***Çapa qəbul olunub: 08.11.2021.***



*© AMEA İqtisadiyyat İnstitutu*
*© www.economics.com.az*